ƏDLİYYƏ
881 ÇAĞRI MƏRKƏZİ
www.justice.gov.az
Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı
№ 01 (262) yanvar 2026

# 20 Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar Ədliyyə Nazirliyinin əməkdaşları Şəhidlər xiyabanını ziyarət edib



**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi 20 Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət edib.**

Nazirlik əməkdaşları şəhidlərin məzarları üzərinə gül dəstələri qoyub, Azərbaycanın azadlığı uğrunda həlak olanların xatirəsini hörmət və ehtiramla yad ediblər.





# Nazir Fərid Əhmədov Salyan şəhərində vətəndaşları qəbul edib







**Ədliyyə naziri Fərid Əhmədov 9 yanvar tarixində Salyan şəhərində vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Şirvan, Salyan, Hacıqabul, Sabirabad, Neftçala və Biləsuvar rayonlarından ümumilikdə 74 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciəti dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı Nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# Keniyanın İslah Xidmətləri Departamentinin baş katibi Azərbaycanın penitensiar və probasiya sahəsində təcrübəsi ilə tanış olub






**Keniya Respublikasının Daxili İşlər Nazirliyinin İslah Xidmətləri Departamentinin baş katibi Salome Muhia-Beacco Ədliyyə Nazirliyinin penitensiar müəssisələrinin fəaliyyəti və probasiya sahəsində Azərbaycanın təcrübəsinin öyrənilməsi məqsədilə ölkəmizdə səfərdə olub.**

Qonaq Fəxri xiyabanı, Şəhidlər xiyabanını və Zəfər parkını ziyarət edib.

Daha sonra Ədliyyə Nazirliyinin Penitensiar xidmətində ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidovla görüş keçirilib. Görüşdə penitensiar sahədə qanunvericilik, məhkum və həbs edilmiş şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi müzakirə olunub, infrastrukturun yenilənməsi və digər maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Ədliyyə Nazirliyinin Probasiya xidmətində keçirilən görüşdə xidmətin rəisi Vüqar Ağayev, xidmətin məsul əməkdaşları, eləcə də Bakı şəhəri Probasiya idarəsinin nümayəndələri iştirak ediblər. Görüş zamanı son illərdə ölkəmizdə probasiya sisteminin inkişafı istiqamətində həyata keçirilən institusional və hüquqi islahatlar, probasiya nəzarətində olan şəxslərlə aparılan sosial və psixoloji reabilitasiya tədbirləri, rəqəmsal idarəetmə və elektron nəzarət mexanizmlərinin tətbiqi barədə ətraflı məlumat verilib, innovativ idarəetmə platformalarına dair təqdimatlar nümayiş etdirilib.





Səfər çərçivəsində Salome Muhia-Beacco Bakı İstintaq təcridxanasının, 4 saylı cəzaçəkmə müəssisəsinin, Yetkinlik yaşına çatmayanlar üçün penitensiar müəssisənin və Probasiya xidmətinin Rəqəmsal monitorinq mərkəzinin fəaliyyəti ilə tanış olub. Ölkəmizdə penitensiar və probasiya sistemlərinin müasir yanaşmalar əsasında qurulması, məhkumların sosial reabilitasiyası istiqamətində həyata keçirilən tədbirlər, eləcə də rəqəmsal texnologiyaların tətbiqi S.Muhia-Beacco tərəfindən yüksək qiymətləndirilib.

Görüşlərdə hər iki ölkənin penitensiar və probasiya qurumları arasında əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsi və gələcək birgə tərəfdaşlıq məsələləri müzakirə olunub.

# Ədliyyə Nazirliyində Qırğız Respublikasının nümayəndə heyəti ilə görüş keçirilib

**Yanvarın 15-də Ədliyyə nazirinin müavini Abiddin Hüseynov ölkəmizdə səfərdə olan Qırğız Respublikasının Ədliyyə nazirinin müavini Orozbek Sıdıkovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan və Qırğız Respublikası arasında dostluq münasibətlərinin qədim tarixi, mədəni və dini bağlara əsaslandığı, bu xüsusun ikitərəfli əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə verdiyi qeyd olunub. Həmçinin vurğulanıb ki, iki ölkə arasında Türk Dövlətləri Təşkilatı çərçivəsində faydalı əməkdaşlıq münasibətləri mövcuddur.

Bildirilib ki, ikitərəfli münasibətlər hüquq və ədliyyə istiqamətində də dinamik inkişaf edib, bu çərçivədə təcrübə mübadiləsi, qarşılıqlı səfərlər və müvafiq məsləhətləşmələr keçirilib. Notariat, penitensiar və probasiya sahələri, eləcə də ədliyyə sahəsində rəqəmsallaşma istiqamətində əməkdaşlığın və təcrübə mübadiləsinin uğurla inkişaf etdiyi diqqətə çatdırılıb.

Görüşün sonunda tərəflər səfərin ikitərəfli münasibətlərin daha da inkişafına, əməkdaşlığın dərinləşdirilməsinə və gələcəkdə konkret nəticələrin əldə olunmasına şərait yaradacağına əminliklərini ifadə ediblər.





# Amnistiya aktı indiyədək 12 mindən çox şəxsə tətbiq olunub

**"Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Milli Məclisin 19 dekabr 2025-ci il tarixli Qərarı 22 dekabr 2025-ci il tarixindən 26 yanvar 2026-cı il tarixinədək Ədliyyə Nazirliyinin Penitensiar və Probasiya xidmətləri, habelə İstintaq idarəsi üzrə 12.336 şəxs barəsində tətbiq olunub.**

Amnistiya tətbiq olunan şəxslərin 4.977-si müəyyən müddətə azadlıqdan məhrumetmə, 6.613-ü isə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalardan azad edilib. Bundan əlavə, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 734 nəfərin cəzası 6 ay azaldılıb. 12 nəfər isə cinayət məsuliyyətindən azad edilib (ədliyyə orqanlarının istintaq aidiyyəti üzrə).

Cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərdən Vətən müharibəsində iştirak etdiyinə görə 13 nəfər və Qərar qüvvəyə mindiyi günədək 60 yaşına çatdığına görə 13 nəfər də cəzadan azad edilənlər arasında yer alıb.

Amnistiya tətbiq olunmuş şəxslərdən 1.021-i böyük ictimai təhlükə törətməyən, 10.502-si az ağır, 813-ü ağır cinayətlər törətmiş şəxslərdir.

Ümumilikdə amnistiya tətbiq olunmuş şəxslərdən 11.761-i kişi (onlardan 17-si yetkinlik yaşına çatmayan şəxslərdir), 575-i isə qadındır.

Amnistiya aktının icrası davam edir.




---

# Bölgələrdə yaşayan vətəndaşlar üçün videoqəbullar keçirilib

**Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.**







Yanvarın 21-də Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini Mübariz Əhmədov tərəfindən Lənkəran, Gəncə, Bərdə, Şirvan, Şəki, İmişli və Göyçay regional ədliyyə idarələri ilə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbul keçirilib.

Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbulda İstintaq idarəsi, İcra xidməti və Bələdiyyələrlə iş baş idarəsinin fəaliyyət istiqamətləri ilə bağlı 10 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.









**Yanvarın 29-da Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini Abiddin Hüseynov tərəfindən Gəncə, Şirvan, İmişli, Lənkəran, Göycay və Bərdə regional ədliyyə idarələri ilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videokonfrans vasitəsilə qəbul keçirilib.**

Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbulda Notariat, qeydiyyat və reyestr baş idarəsi, Məhkəmə Ekspertizası Mərkəzi və İnsan resursları idarəsinin fəaliyyət istiqamətləri ilə bağlı vətəndaşların müraciətləri dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Qəbula qatılan vətəndaşlar belə görüşlərin region sakinləri üçün əhəmiyyətini vurğulayıb, operativ həll mexanizmlərindən məmnunluqlarını ifadə ediblər.

**Yanvar ayı ərzində Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə Nazirliyin Penitensiar xidməti, Bələdiyyələrlə iş baş idarəsi, İcra xidməti, Notariat, qeydiyyat və reyestr baş idarəsi, Cəzaların icrasına nəzarət baş idarəsi və İnsan resursları idarəsinin rəhbərliyi tərəfindən İmişli, Gəncə, Şirvan, Bərdə, Şəki, Lənkəran, Göyçay, Xaçmaz, Şəmkir, Sumqayıt regional ədliyyə idarələri və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbullar keçirilib.**

Videoqəbullarda Nazirliyin fəaliyyət istiqamətləri üzrə 62 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.



# İctimai şura üzvləri Ədliyyə Nazirliyinin qurumlarında olublar






**Ədliyyə Nazirliyi yanında İctimai şuranın üzvləri ədliyyə orqanlarının fəaliyyəti ilə yaxından tanış olmaq və ictimai iştirakçılığın səmərəliliyini artırmaq məqsədilə Nazirliyin Cəzaların icrasına nəzarət baş idarəsinə və İcra xidmətinə baş çəkiblər.**

Cəzaların icrasına nəzarət baş idarəsində keçirilən görüşdə baş idarənin rəisi Anar Qocayev qurumun əsas fəaliyyət istiqamətləri, həyata keçirilən islahatlar, qarşıda duran hədəflər barədə məlumat verib. O, cəza siyasətinin humanistləşdirilməsi, cəza-icra qurumlarının fəaliyyətində tətbiq olunan yeni yanaşmalar, eləcə də məhkumların cəmiyyətə reinteqrasiyası istiqamətində görülən işlərdən danışıb.

İctimai şura üzvləri, həmçinin İcra xidmətində olublar. Xidmətin rəisi Vidadi Məmmədov qonaqlara icra proseslərində səmərəliliyin və operativliyin artırılması, elektron icra sisteminin təkmilləşdirilməsi, ötən il istifadəyə verilmiş mobil icra tətbiqi, eləcə də elektron hərrac portalı barədə ətraflı məlumat verib. Görüş zamanı islahatların nəticələri, icra prosesində şəffaflıq və effektivliyin artırılması, həmçinin rəqəmsal xidmətlər vasitəsilə vətəndaş məmnunluğunun təmin olunması məsələlərinə toxunulub.

İctimai şura üzvləri hər iki qurumda aparılan işləri yüksək qiymətləndirərək gələcək əməkdaşlıq və mütəmadi məlumat mübadiləsinin vacibliyini qeyd ediblər.

# ”Bələdiyyələrin fəaliyyətinə metodoloji yardım: istiqamətlər və perspektivlər” mövzusunda görüş keçirilib



**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsində ”Bələdiyyələrin fəaliyyətinə metodoloji yardım: istiqamətlər və perspektivlər” mövzusunda görüş təşkil olunub.**

Tədbirdə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Azərbaycan Dövlət İqtisad Universitetinin, Hüquq və İnsan Haqları İnstitutunun, Bələdiyyələrin Milli Assosiasiyalarının, Ədliyyə Nazirliyi yanında İctimai şuranın nümayəndələri və ”Bələdiyyələrin fəaliyyətinin təbliği” İctimai birliyinin sədri iştirak ediblər.

Tədbir zamanı iştirakçılara Bələdiyyələrlə iş baş idarəsinin fəaliyyəti və bələdiyyələrlə aparılan işin əsas istiqamətləri barədə məlumat verilib. Daha sonra baş idarə tərəfindən 2025-ci ildə hazırlanmış ”Yerli özünüidarəetmədə şəffaflıq və antikorrupsiya” və ”Bələdiyyə üzv və qulluqçularının hüquqi statusu və ondan irəli gələn əsas tələblər” adlı metodik vəsaitlərin təqdimatı keçirilib. Təqdimat çərçivəsində metodik vəsaitlərdə əhatə olunan məsələlərə, aidiyyəti sahələr üzrə mövcud boşluqlara və onların aradan qaldırılması mexanizmlərinə toxunulub.

Tədbirdə, həmçinin bələdiyyələrlə metodoloji işin daha da təkmilləşdirilməsi, gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, bələdiyyələrin institusional inkişafı və maliyyə dayanıqlılığının artırılması ilə bağlı fikir mübadiləsi aparılıb. Sonda qarşılıqlı əməkdaşlıq imkanları üzrə təkliflər irəli sürülüb.

# Bələdiyyələrin rəqəmsallaşdırılması istiqamətində tədbirlər davam etdirilir



**Ədliyyə Nazirliyi tərəfindən yerli özünüidarəetmə orqanlarının fəaliyyətində səmərəliliyin və hesabatlılığın artırılması, bələdiyyələrin yerli əhəmiyyətli məsələlərin həllində daha fəal iştirakının təşviqi, habelə bu sahədə ictimaiyyətin ətraflı məlumatlandırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.**

Bu çərçivədə bələdiyyələrin müasir informasiya-kommunikasiya texnologiyalarından istifadəsinin genişləndirilməsi, əhalinin yerli özünüidarəetmə orqanlarının fəaliyyəti barədə məlumatlılıq səviyyəsinin yüksəldilməsi, eləcə də şəffaflıq və hesabatlılığın gücləndirilməsi istiqamətində Nazirlik tərəfindən mütəmadi metodiki iş aparılır. Eyni zamanda, bələdiyyələr üçün seminarlar təşkil olunur, eləcə də praktik tövsiyələr hazırlanaraq onlara göndərilir.

Görülmüş tədbirlər nəticəsində 2025-ci ildə ilk dəfə olaraq respublika üzrə bütün bələdiyyələrin internetə çıxışı təmin edilib. Bununla da qanunvericiliyin tələblərinə uyğun olaraq bələdiyyə aktlarının inzibati nəzarəti həyata keçirən orqana ”Bələdiyyələrlə iş” informasiya sistemi vasitəsilə elektron qaydada təqdim edilməsi imkanı yaradılıb.

Bununla yanaşı, sosial medianın informasiyaya əlçatanlığı təmin edən əsas vasitələrdən biri olması nəzərə alınaraq, bələdiyyə fəaliyyəti barədə ictimaiyyətin operativ məlumatlandırılması məqsədilə onların internet səhifələrinin yaradılması təşviq edilir. Yerli özünüidarəetmə üzrə Əlaqələndirmə Şuraları ilə yanaşı, bələdiyyələrin sosial şəbəkə hesablarında da mütəmadi olaraq məlumatların paylaşılması təmin olunur.

# Hakimlər üçün cinayət hüququ və cinayət prosesi üzrə təlimlər keçirilib




**Ədliyyə Nazirliyinin təşkilatçılığı, Məhkəmə-Hüquq Şurası və Ali Məhkəmənin birgə dəstəyi ilə hakimlər üçün cinayət hüququ və cinayət prosesi üzrə təlimlər keçirilib.**

Təlimlər Almaniyanın Hamburq Regional Məhkəməsinin hakimi Anastasiya Moys tərəfindən aparılıb.

Hakimlərin təlimçi kimi inkişaf etdirilməsi və gələcəkdə onların vasitəsilə digər hakimlərin və hakimliyə namizədlərin bilik və bacarıqlarının artırılması məqsədilə təşkil edilən təlimlərdə müxtəlif instansiya məhkəmələrinin hakimləri iştirak edib.

Qeyd edək ki, ölkəmizdə hakim korpusunun komplektləşdirilməsi, məhkəmə hakimiyyətinin peşəkar hakimlərlə təmin edilməsi və bu çərçivədə hakimlərin hazırlığının təkmilləşdirilməsi məqsədilə hakimliyə namizədlərin ilkin uzunmüddətli təlimi və hakimlərin davamlı tədrisi Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

# Ədliyyə Nazirliyində insan resurslarının idarə olunması sahəsində yeni yanaşmalar müzakirə olunub



**Yanvarın 14-də dövlət qulluğunda idarəetmə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə "İnsan resurslarının idarə olunmasında situativ liderlik modeli və idarəetmə manеələri" mövzusunda onlayn təlim keçirilib.**

Təlim "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı"na uyğun təşkil olunub. Təlimin məqsədi dövlət qulluğunda rəhbər vəzifəli şəxslərin idarəetmə və insan resurslarının idarə olunması sahəsində müasir yanaşmalarla tanışlığı və praktiki bacarıqların artırılmasıdır.

Peşəkar təlimçi Şahin Qədimlinin təqdimatında keçən sessiyada Nazirliyin insan resursları üzrə qurumlarında çalışan rəhbər şəxslər və əməkdaşlar olmaqla 50 nəfər iştirak edib.

Təlim çərçivəsində situativ liderlik modeli, idarəetmə manеələri və insan resurslarının inkişafında tətbiq olunan müasir metodologiyalar müzakirə olunub.

# Ədliyyə Nazirliyi qulluğa qəbulla bağlı növbəti açıq müsabiqə elan edir

**Ədliyyə Nazirliyi tərəfindən ədliyyə orqanlarına qulluğa qəbulla bağlı növbəti müsabiqə elan edilir.**

Müsabiqədə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunun 4-cü maddəsində nəzərdə tutulmuş tələblərə cavab verən ali hüquq təhsilli Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Dövlət icra məmuru vəzifəsi istisna olmaqla, Ədliyyə Nazirliyinin digər struktur qurumlarında olan vakant vəzifələri əhatə edən bu müsabiqədə iştirak üçün ərizələrin qəbulu 2026-cı il yanvar ayının 19-dan mart ayının 19-u saat 23:59-dək aparılacaq.

Namizədlər qeyd olunan tarixədək ərizələrini Nazirliyin rəsmi saytında "Qulluğa qəbul" bölməsinə və ya "Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı elektron müraciət" adlı xidmətə, yaxud linkə daxil olmaqla təqdim edə bilərlər.




Müsabiqə üzrə test imtahanı Dövlət İmtahan Mərkəzi tərəfindən ödənişli əsaslarla keçirilir. Bununla əlaqədar hər bir namizəd imtahana buraxılış vərəqəsini bu barədə elan verildikdən sonra Mərkəzin rəsmi saytında qeydiyyatdan keçməklə və müvafiq vəsaiti ödəməklə əldə etməlidir.

Test imtahanının dəqiq vaxtı və yeri, o cümlədən buraxılış vərəqələrinin təqdim olunması barədə namizədlərə öncədən məlumat veriləcək.

İmtahanda uğur qazanmış namizədlərin digər zəruri sənədləri bu mərhələdən sonra toplanılaraq yoxlanılacaq və qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən şəxslər ikinci mərhələyə - söhbətə buraxılacaqlar.

Qeyd edək ki, qanunvericiliyə edilmiş dəyişikliyə uyğun olaraq, icra məmuru vəzifələrinə qəbulla bağlı ayrıca müsabiqə elan ediləcək və bu barədə mediada məlumat veriləcək.

Əlavə məlumatlar üçün (012) 538-01-62, (012) 538-08-85 nömrəli telefonlarla əlaqə saxlamaq olar.

# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### "Bakı Politoloqlar Klubu" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.09.2021-ci il
**Qeydiyyat N-si:** 1121-Q77-3939
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədov Zaur Vaqif oğlu olmuşdur
**Dəyişiklik:** 05.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Regional Sosial Təşəbbüslərə Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.09.2021-ci il
**Qeydiyyat N-si:** 1121-Q77-3949
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Tağıyev Əjdər Elçin oğlu olmuşdur
**Dəyişiklik:** 05.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Ədalət və İnkişaf Naminə" uşaq və gənclərə dəstək ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.04.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q32-2855
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Quluzadə Ləman Kamil qızı olmuşdur
**Dəyişiklik:** 07.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Alyans" Azərbaycan Xüsusi Xidmət Orqanları Veteranlarının ictimai birliyi

**Qeydiyyat tarixi:** 05.05.2004-cü il
**Qeydiyyat N-si:** 1104-Q2-1558
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Abasov Fəxri Mitat oğlu olmuşdur
**Dəyişiklik:** 07.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Gənc Hüquqşünas Qadınlar Hüquqi İslahatlar Uğrunda" ictimai birliyi

**Qeydiyyat tarixi:** 18.08.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q13-2186
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Məmmədli Səbinə Etibar qızı olmuşdur
**Dəyişiklik:** 07.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Çağdaş İncəsənətin İnkişafına Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.04.2021-ci il
**Qeydiyyat N-si:** 1121-Q76-3899
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Səmədova Əsli Rüstəm qızı olmuşdur
**Dəyişiklik:** 07.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Uşaq Nevroloqları Assosiasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 19.03.1999-cu il
**Qeydiyyat N-si:** 1105
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Əliyev Rahim Rafail oğlu olmuşdur
**Dəyişiklik:** 09.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi

**Qeydiyyat tarixi:** 17.09.1999-cu il
**Qeydiyyat N-si:** D-318
Azərbaycan Respublikasının Milli Depozit Mərkəzinin Müşahidə Şurasının qərarı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Əlizadə Elçin Ağaməmməd oğlu olmuşdur
**Dəyişiklik:** 09.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Motohəvəskarlar və Motoklublar Assosiasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.12.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q83-4252
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Zahirov Elmar Zahir oğlu olmuşdur
**Dəyişiklik:** 09.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Həmkarların Sağlam Gələcəyi Naminə" ictimai birliyi

**Qeydiyyat tarixi:** 23.02.1994-cü il
**Qeydiyyat N-si:** 1902
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rzayev İmran Sədulla oğlu olmuşdur
**Dəyişiklik:** 09.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası

**Qeydiyyat tarixi:** 29.03.2000-ci il
**Qeydiyyat N-si:** D-393

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi İsmayılov Rövşən Rəhim oğlu olmuşdur
**Dəyişiklik:** 12.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Çimərlik Futbol Federasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.09.2003-cü il
**Qeydiyyat N-si:** 1103-Q1-1474
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Novruzi Fərid Əlibəy oğlu olmuşdur
**Dəyişiklik:** 14.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan-Türkiyə İş Adamları" ictimai birliyi

**Qeydiyyat tarixi:** 04.04.2002-ci il
**Qeydiyyat N-si:** 1370
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rüstəmov Mürsəl Sərdar oğlu olmuşdur
**Dəyişiklik:** 15.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Əhalinin Maarifləndirilməsinə Mütəxəssislərin Dəstəyi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 22.04.2013-cü il
**Qeydiyyat N-si:** 1113-Q45-3165
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Gözəlov Famil Eyvaz oğlu olmuşdur
**Dəyişiklik:** 15.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Türkdilli Dövlətlərlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti" ictimai birliyi

**Qeydiyyat tarixi:** 14.07.2009-cu il
**Qeydiyyat N-si:** 1109-Q28-2762
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Salmanov Eldəniz Saday oğlu olmuşdur
**Dəyişiklik:** 15.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Gənc Könüllülər" ictimai birliyi

**Qeydiyyat tarixi:** 15.12.2020-ci il
**Qeydiyyat N-si:** 1120-Q75-3875
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Allahverdiyev Ayxan Elman oğlu olmuşdur
**Dəyişiklik:** 15.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Marketinq Fəaliyyətinin İnkişafına Dəstək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 06.12.2012-ci il
**Qeydiyyat N-si:** 1112-Q43-3126
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Yəhya Sənan Hacıağa oğlu olmuşdur
**Dəyişiklik:** 19.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### Azərbaycan "İcma inkişafı üzrə araşdırmalar, təlim və resurs Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 05.11.2002-ci il
**Qeydiyyat N-si:** 1404
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Dadaşov Yasin Şirin oğlu olmuşdur
**Dəyişiklik:** 19.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Milli İrsi, Mədəni, Tarixi Araşdırmalar" Fondu

**Qeydiyyat tarixi:** 31.01.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q3-1687
Fondun Himayəçilər şurasının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əmirov Pərviz Zahid oğlu olmuşdur
**Dəyişiklik:** 19.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Jurnalist Araşdırmaları Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.10.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q23-2595
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Verdizadə Seymur Vaqif oğlu olmuşdur
**Dəyişiklik:** 19.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 15.03.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q8-2019
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qəhrəmanova Mirvari Üzeyir qızı olmuşdur
**Dəyişiklik:** 19.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Avtomobil Dilerləri Assosiasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 11.11.2004-cü il
**Qeydiyyat N-si:** 1104-Q3-1626
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən qanuni təmsilçisi Zərbəliyev Natiq İsfəndiyar oğlu olmuşdur
**Dəyişiklik:** 21.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Oriqami" uşaq və yeniyetmələr ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.12.2003-cü il
**Qeydiyyat N-si:** 1103-Q1-1509
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Nəcəfov Namiq Nəcəf oğlu olmuşdur
**Dəyişiklik:** 21.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Beynəlxalq Əlillər Cəmiyyəti" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.06.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q32-2863
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Xudiyev Tahir Bərxudar oğlu olmuşdur
**Dəyişiklik:** 22.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Bakı Tennis Akademiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.06.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q5-1817
Birliyin ümumi yığıncağının protokolu və digər sənədlərə əsasən yeni qanuni təmsilçisi Əsgərəlizadə Salam Bağır oğlu olmuşdur
**Dəyişiklik:** 23.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Milli Kulinariyasının Araşdırılması, Təbliği və Dünyaya İnteqrasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.03.2004-cü il
**Qeydiyyat N-si:** 1104-Q2-1538a
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rəsulova Firuzə Həmdəm qızı olmuşdur
**Dəyişiklik:** 26.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

### "Ekologiyanın Qorunmasına Kömək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 21.11.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q14-2258
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Sadıqov Sadıq Mabid oğlu olmuşdur
**Dəyişiklik:** 26.01.2026-cı il tarixdə qeydiyyata alınmışdır

## ELAN

15.03.2006-cı il tarixdə 1106-Q9-2043 nömrə ilə Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış "Yerli İdarəetməyə Yardım" ictimai birliyi ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Nəsimi rayonu, Moskva prospekti, 3004-cü məhəllə, ev 56D, mənzil 138, giriş 2.

***

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 29 mart 2016-cı il tarixli 1116-QK6-0031 nömrə ilə dövlət qeydiyyatına alınmış Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Nafta" Elmi İstehsalat Birliyi ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Xətai prospekti, 49.

***

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 29 noyabr 2019-cu il tarixli 1119-QK9-0066 nömrə ilə dövlət qeydiyyatına alınmış Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin "Kompozit" Elmi İstehsalat Birliyi ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Xətai prospekti, 49.

***

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən 19 yanvar 2024-cü il tarixli 1124-QK14-0101 nömrə ilə dövlət qeydiyyatına alınmış COP29 Azərbaycan Əməliyyat Şirkəti ləğv edildiyini elan edir.
Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, K.Kazımzadə, 100a

**Təsisçi:** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
**Buraxılışa məsul:** Rasim Həsənov
**Ünvan:** Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1. Tel: 537-06-40
Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur. Qəzet ayda bir dəfə çıxır.
Reyestr N 769